Qeyd edək ki, 2013-cü ildə Yaponiyanın Tokio şəhərində YUNİSEF-in dəstəyi ilə təşkil olunmuş rəsm müsabiqəsində Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin gənc rəssamları fəal iştirak edib, müsabiqəyə 31 rəsm təqdim olunub. 8 yaşlı Nərgiz Əmiraslanlı dünyanın 77 ölkəsinin uşaqları arasında "Yer kürəsində dostcasına yaşamaq" adı altında keçirilən müsabiqədə qalib olub və onun rəsm işi kataloqa düşüb.

Mükafatlandırma mərasimində Təhsil Nazirliyinin Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdir əvəzi Hüseyn Əliyev, həmin şöbənin müdir müavini Vasif Məmmədov, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağəəli İbrahimov, rəssam Dilarə Atakişiyeva, Nizami rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Lalə Qəti, Nərgiz Əmiraslanlının təhsil aldığı 238 saylı məktəbin direktoru İlqar Əliyev və digər şəxslər iştirak ediblər.

Yaponiyadan göndərilmiş mükafat və hədiyyə təntənəli şəkildə gənc rəssama təqdim olunub.

Sonra Nərgiz Əmiraslanlının rəsm işlərindən ibarət sərgiyə baxış keçirilib.